GÜNÜN SİYASİ NƏBZİ





# Qlobal enerji bazarında yeni cazibə mərkəzi - Bakı-Vaşinqton xətti

*Azərbaycan XXI əsrdə enerji siyasətini regional sabitliyin və beynəlxalq əməkdaşlığın əsas sütunlarından biri kimi müəyyənləşdirib. Bu strateji yanaşma illərdir ölkənin enerji resurslarından səmərəli və sistemli istifadə edilməsinə, həmçinin xarici tərəfdaşlarla etibarlı, uzunmüddətli əməkdaşlıqlar qurulmasına imkan verib. Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə dünyanın enerji nəhəngi "ExxonMobil" arasında imzalanan "Əməkdaşlıq haqqında Memorandum" ölkənin enerji sektorunun beynəlxalq miqyasda nüfuzunun və gücünün növbəti nümayişidir.*



Qlobal enerji bazarlarında transformasiyalar, Rusiya-Ukrayna müharibəsinin təsirləri, Avropanın enerji şaxələndirməsi planları və bərpaolunan enerji mənbələrinə keçid əməkdaşlıqları daha da aktuallaşdırır. Memorandumun əhatə etdiyi sahələr sırasında isə ənənəvi və qeyri-ənənəvi enerji mənbələrinin araşdırılması, infrastrukturun müasirləşdirilməsi, karbon emissiyalarının azaldılması texnologiyalarının tətbiqi, xarici investisiya imkanlarının genişləndirilməsi, yeni yataqların kəşfiyyatı və hasilatı, enerji daşıyıcılarının şaxələndirilməsi və bir çox digər komponentlər mövcuddur. Bu, həm Azərbaycanın enerji təhlükəsizliyinə, həm də qlobal enerji transformasiyası prosesinə inteqrasiyasına xidmət edəcək. SOCAR və "ExxonMobil" kimi nəhəng şirkətlərin bir araya gəlməsi texnoloji transformasiyaya da stimul verəcək. ABŞ şirkəti süni intellekt, süni zəka ilə idarə olunan emal sistemləri, qaz sızmalarının avtomatik aşkarlanması kimi qabaqcıl texnologiyaların tətbiqində dünya liderlərindəndir. Bu texnologiyaların Azərbaycanda tətbiqi enerji sənayesində məhsuldarlığı artırmaqla yanaşı, həm də ekoloji təhlükəsizlik baxımından yeni mərhələni ifadə edəcək. Bu, ölkəmizə gələcəkdə yalnız neft hasilatı ilə yox, həm də innovasiya və ixtiraçılıqla tanınmaq fürsəti yaradır. SOCAR-a məxsus neft emalı zavodlarında və qaz terminallarında tətbiq ediləcək yeni nəsil texnologiyalar məhsuldarlığı artıracaq, istismar xərclərini isə azaldacaq. Azərbaycan neftlə zəngin ölkə olsa da, son illərdə "yaşıl enerji"yə keçidlə bağlı mühüm addımlar atır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən enerji diversifikasiyası strategiyası çərçivəsində külək və günəş enerjisi üzrə bir sıra beynəlxalq layihələrə start verilib. "ExxonMobil" kimi tərəfdaşın bu prosesə inteqrasiyası Azərbaycanın "yaşıl enerji" bazarına olan inamı artırır. Ötən il ABŞ şirkətləri ilə birgə Xəzərin sahilboyu ərazilərində günəş və külək stansiyalarının tikintisinə dair ilkin razılaşmalar imzalanmışdı. "ExxonMobil"in iştirakı bu layihələrə əlavə maliyyə dayanıqlılığı və texnoloji dəstək verəcək. Uzunmüddətli əməkdaşlıq gənclər üçün də mühüm perspektivlər açır. "ExxonMobil"in beynəlxalq təcrübəsi SOCAR-ın insan kapitalına yeni nəfəs gətirəcək. Memorandum çərçivəsində birgə təlim proqramları, ixtisasartırma kursları və akademik mübadilə imkanlarının yaradılması gözlənilir. Azərbaycan Texniki Universiteti, Neft və Sənaye Universiteti kimi təhsil müəssisələri əməkdaşlıq sayəsində beynəlxalq standartlara uyğun kadrlar yetişdirmək üçün yeni imkanlar əldə edəcək.




Azərbaycan son illərdə Cənubi Qafqazda enerji təhlükəsizliyi və nəqliyyat dəhlizlərinin mərkəzi oyunçusuna çevrilib. BP ilə uzunmüddətli əməkdaşlıq təcrübəsi olan SOCAR-ın bu dəfə ABŞ-ın nəhəng enerji şirkəti "ExxonMobil" ilə memorandum imzalaması regional enerji balansına yeni çalarlar qatır. Əgər bu günə qədər BP əsas strateji tərəfdaşlardan biri idisə, artıq bu blokun daxilinə "ExxonMobil"in daxil olması Qafqazda enerji rəqabətini gücləndirəcək. Bununla da Azərbaycan neft və qaz ehtiyatlarının işlənməsi və nəqlində texnoloji tərəqqiyə, diversifikasiyaya və strateji alternativlərə sahib olacaq. Birləşmiş Ştatlar Azərbaycanı yalnız regiondakı enerji müttəfiqi kimi deyil, həm də Mərkəzi Asiya və Yaxın Şərqə enerji körpüsü kimi görür. Ölkəmizin Çin və Mərkəzi Asiyaya yönəlik enerji və nəqliyyat siyasəti son illərdə güclənib. Orta Dəhliz çərçivəsində Bakı-Tbilisi-Qars dəmir yolu, Zəngəzur dəhlizi ideyası və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi infrastruktur layihələri Azərbaycanın enerji və logistika mərkəzi kimi mövqeyini gücləndirir. "ExxonMobil"in iştirakı bu prosesləri sürətləndirə bilər. Pekin, əsasən Mərkəzi Asiya və İran üzərindən enerji alır, lakin Qərbin dominantlığı altında olan şirkətlərlə əməkdaşlıq etməkdə maraqlıdır. ABŞ şirkətinin Azərbaycandakı fəaliyyəti isə Çin və Mərkəzi Asiya ölkələrinin də bu coğrafiyada yeni tərəfdaşlıq konfiqurasiyalarına qoşulmasına zəmin yarada bilər. Bu da Azərbaycanı "Qərb-Şərq enerji kəsişməsi"nin mərkəzinə çevirəcək. Bu əməkdaşlıq eyni zamanda Azərbaycanın beynəlxalq təşkilatlar, xüsusən də OPEC+ və enerji təhlükəsizliyi məsələlərində çıxış etdiyi platformalarda daha ciddi aktora çevrilməsinə töhfə verəcək. Beləliklə, Azərbaycan enerji dialoqu sahəsində həm ABŞ-la, həm Avropa İttifaqı, həm də regional tərəfdaşlarla daha balanslı və effektli siyasət həyata keçirəcək.

Vaşinqtonda imzalanan sənədlə bağlı maraqlı məqam odur ki, "ExxonMobil" şirkəti Azərbaycanla əməkdaşlığa yeni başlayırmış kimi görünsə də, əslində bu münasibətlərin tarixi 1990-cı illərin ortalarına dayanır. Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın qarşısında duran əsas məsələlərdən biri neft-qaz resurslarının idarə olunması, xarici investisiyaların cəlb edilməsi və enerji təhlükəsizliyinin təmin edilməsi idi. 1994-cü il sentyabrın 20-də imzalanmış və "Əsrin müqaviləsi" kimi tarixə düşən sənəd bu istiqamətdə dönüş nöqtəsi oldu. Müqavilə əsasında Azəri-Çıraq-Günəşli (AÇG) yataqlarının istismarı üçün birgə konsorsium yaradıldı. "ExxonMobil" həmin dövrdə bu müqavilənin əsas iştirakçılarından biri idi. Şirkət ABŞ-ın enerji sektorundakı əsas siması olmaqla yanaşı, Azərbaycanda müstəqil neft siyasətinin formalaşmasında mühüm rol oynayan korporativ tərəfdaş kimi çıxış etdi. Həmin illərdə "ExxonMobil"in AÇG-dəki payı 8 faiz idi və bunun vasitəsilə şirkət uzun illər ərzində Azərbaycanda fəaliyyət göstərdi. 2000-ci illərdən etibarən Azərbaycanın enerji siyasətində əsas prioritetlərdən biri də qaz ehtiyatlarının inkişafı və ixracı oldu. "Şahdəniz" yatağının kəşfi və mərhələli şəkildə istismarı, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşası və daha sonra Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) kəmərləri vasitəsilə Avropaya qaz ixracının reallaşması Azərbaycanın enerji siyasətində yeni səhifə açdı. Bu dövrdə "ExxonMobil" Azərbaycan qaz layihələrində birbaşa iştirak etmədi, lakin bazardakı texniki və iqtisadi potensialı yaxından izlədi. SOCAR isə bu dövrdə təkcə hasilatçı və ixracatçı kimi deyil, həm də qlobal enerji şirkəti statusu qazanmağa başladı. Türkiyədə "STAR" neft emalı zavodunun qurulması, Avropada müxtəlif enerji terminalları və paylama şəbəkələrində iştirak, habelə digər ölkələrlə əməkdaşlıq çərçivəsində həyata keçirilən layihələr SOCAR-ın beynəlxalq səviyyədə təsir dairəsini artırdı. Bütün bu proseslər Azərbaycanı enerji istehsalçısından geosiyasi oyunçuya çevirdi. 2018-ci ildə "ExxonMobil" AÇG konsorsiumundakı payını sataraq Azərbaycandakı fəaliyyətini minimuma endirdi. Bu, bəzi müşahidəçilər tərəfindən şirkətin regiona marağının azaldığı kimi qiymətləndirildi. Lakin hadisələrin gedişi göstərdi ki, "ExxonMobil"in çəkilməsi taktiki xarakter daşıyırdı. Belə ki, şirkət dəyişən enerji bazarına uyğun olaraq yeni strategiyalar müəyyənləşdirirdi. Bu strategiyaların əsasında isə ənənəvi və qeyri-ənənəvi enerji resurslarının paralel inkişafı, karbonsuzlaşma texnologiyalarının tətbiqi və dayanıqlı inkişaf prinsipləri dayanırdı. 2020-ci illərin sonlarından etibarən qlobal enerji sektorunda yaşanan böhranlar, Rusiya-Ukrayna müharibəsi, Avropanın enerji ehtiyaclarının dəyişməsi və qaz təminatında alternativ marşrutlara ehtiyac "ExxonMobil" kimi şirkətlərin Cənubi Qafqaz və Xəzər regionuna yenidən diqqət ayırmasına səbəb oldu. Azərbaycan isə bu dəyişən konfiqurasiyada mövcud resurs və siyasi baxımdan ən sabit və strateji tərəfdaş kimi önə çıxdı.

2023-2024-cü illərdə Azərbaycanın Avropa İttifaqı ilə qaz təchizatı sahəsində bağladığı memorandumlar və yeni marşrutların işlənməsi ABŞ-ın da maraq dairəsində idi. İki ölkənin aidiyyəti şirkətləri arasında əməkdaşlıqla bağlı danışıqlar 2024-cü ilin sonlarında intensivləşdi. Bu ilin martında iqtisadiyyat naziri Mikayıl Cabbarovun və SOCAR prezidenti Rövşən Nəcəfin ABŞ-a səfəri zamanı "ExxonMobil"in rəhbərliyi ilə keçirilən görüşdə əməkdaşlıq imkanları geniş müzakirə edildi. Prezident İlham Əliyev iyun ayında "ExxonMobil"in vitse-prezidenti Con Ardill ilə görüşündə bu əməkdaşlığın vacibliyini qeyd edərək Azərbaycanın enerji strategiyasına uyğunluğunu vurğuladı. Görüş diplomatik baxımdan imzalanma mərasiminə zəmin hazırladı və SOCAR-"ExxonMobil" əməkdaşlığının strateji əsaslara dayandığını təsdiqlədi. Yəni, SOCAR və "ExxonMobil"in əməkdaşlıq tarixində artıq müəyyən təcrübələr mövcuddur. AÇG layihəsindəki birgə fəaliyyətdən tutmuş, Xəzər dənizində aparılmış seysmik kəşfiyyatlara qədər müxtəlif sahələrdə tərəfdaşlıq qurulub. Bu təcrübələr yeni memoranduma əsaslı zəmin yaradaraq artıq bir-birini tanıyan və qarşılıqlı inam formalaşdırmış iki korporativ strukturu bir araya gətirib. Yeni mərhələdə isə əməkdaşlığın əsas istiqamətləri daha da genişləndirilib. Artıq söhbət yalnız neft hasilatından deyil, bərpaolunan enerji, karbonun saxlanması texnologiyaları, hidrogen enerjisi, qaz ehtiyatlarının səmərəli istifadəsi və enerji infrastrukturunun modernləşdirilməsi kimi geniş spektrli sahələrdən gedir. Odur ki, "Əməkdaşlıq haqqında Memorandum" tarixi tərəfdaşlığı yeni texnoloji imkanlarla daha geniş fəaliyyət çərçivəsində canlandırmaq məqsədi daşıyır.

Azərbaycanla "ExxonMobil" arasında əməkdaşlıq, xüsusilə Rusiya və İran kimi regional güclərin diqqətindən yayınmır. Rusiya üçün bu sənəd Qərbin Cənubi Qafqazdakı enerji infrastrukturuna daha bir strateji oyunçunun daxil olması deməkdir. Bu isə Kremlin bölgədəki təsir dairəsinin zəifləməsi kimi qiymətləndirilə bilər. Çünki ABŞ şirkəti yalnız kommersiya məqsədi güdmür, Ağ Evin siyasi, iqtisadi və təhlükəsizlik maraqlarının təminatçısı kimi fəaliyyət göstərir. Qlobal enerji qiymətlərinin dəyişkənliyi və təbii qazın geosiyasi alətə çevrildiyi dövrdə Avropa üçün sabit və etibarlı tərəfdaşların sayı məhduddur. Azərbaycanın bu kontekstdə enerji təchizatçısı kimi rolu daha da güclənəcək. "ExxonMobil"in iştirakı isə Avropa investorları və enerji oyunçuları üçün rəsmi Bakının enerji sektorunu daha cəlbedici edəcək. Azərbaycanın istənilən enerji layihəsində Türkiyənin rolu danılmazdır. "Trans-Anadolu Qaz Boru Kəməri" (TANAP) və digər enerji layihələri göstərdi ki, rəsmi Ankara-Bakı cütlüyünün enerji sinxronizasiyası regionun geoiqtisadi mənzərəsini dəyişə bilər. "ExxonMobil" ilə əməkdaşlıqda da bu sinxronizasiya əhəmiyyət daşıyır. ABŞ-Türkiyə münasibətlərində enerji sektoru daim gündəmdədir və ABŞ şirkətinin Bakıdakı mövqeyi Ankara ilə Vaşinqton arasında da enerji dialoqunu canlandıra bilər.

Tarixi hadisə fonunda xüsusilə qeyd etmək lazımdır ki, sənəd Azərbaycan Prezidenti İlham Əliyevin, eləcə də ABŞ Prezidentinin enerji məsələləri üzrə xüsusi elçisi Stiv Uitkoffun iştirakı ilə imzalanıb. Bu baxımdan memorandum həm də siyasi aspektlər baxımından yüksək əhəmiyyət kəsb edir. Çünki əməkdaşlıq sənədi ölkəmizin beynəlxalq miqyasda artan nüfuzunun növbəti sübutudur. Bu, Azərbaycanın qlobal müstəvidə, beynəlxalq enerji siyasətində etibarlı tərəfdaş kimi qəbul edildiyini göstərir. Gələcək perspektivdə Azərbaycanın reputasiya kapitalı bu kimi razılaşmalarla daha da möhkəmlənəcək və ölkəmizin beynəlxalq maliyyə reytinqlərinə, sərmayə cəlbediciliyinə, diplomatik manevr imkanlarına müsbət təsir göstərəcək. Yekunda qeyd etmək lazımdır ki, SOCAR və "ExxonMobil" arasında imzalanan memorandum Azərbaycanın enerji siyasətinin gələcək onilliklərə yönəlmiş strateji yol xəritəsinin əsas elementlərindəndir. Bu əməkdaşlıq yeni iş yerlərinin açılması, texnoloji transformasiya, ixrac imkanlarının artırılması, dövlət büdcəsinə əlavə gəlirlər və beynəlxalq mövqelərin gücləndirilməsi baxımından çoxşaxəli təsirə malik olacaq. Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın enerji nəhəngi "ExxonMobil" arasında imzalanan "Əməkdaşlıq haqqında Memorandum" rəsmi Bakının xarici siyasət kursunun çevik, balanslı və çoxtərəfli xarakterini daha da gücləndirəcək.

**Jalə QASIMZADƏ,**
**"Respublika".**